**Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2024-cü ildəki müvafiq rəsmi məlumatlarına əsasən, Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı görülmüş tədbirlər**

**May ayı üzrə**

| Xəstəliyin adı | Ölkənin adı | Qadağan qoyulmuş inzibati ərazi vahidi | Qadağan olunmuş heyvan və heyvan mənşəli məhsulların növü | Məhdudlaşdırıcı qərarın tarixi |
|---|---|---|---|---|
| Blutanq | Almaniya | Reynland-Pfalts (Rheinland-Pfalz) vilayətinə | Zonalaşma prinsipi nəzərə alınmaqla, blutanq xəstəliyi baş vermiş təsərrüfatdan 150 km radiusda olan məsafədən bütün növ diri iri və xırdabuynuzlu heyvanların, dəvələrin, həmçinin onlara aid genetik materialların idxalına ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nin 8.3-cü Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət qoyulmuşdur. | 13.05.24 |

| | | | | |
|---|---|---|---|---|
| Dabaq | Cənubi Afrika | Şərqi Keyp (Eastern Cape) əyalətinə | Zonalaşma prinsipi nəzərə alınmaqla, dabaq xəstəliyi baş vermiş təsərrüfatdan 10 km radiusda olan məsafədən çütdırnaqlı heyvanların (iri və xırdabuynuzlu heyvanlar, donuz, dəvə və s.), habelə onlara aid xammal və məhsulların idxalına və tranzit daşınmasına ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nin 8.8-ci Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət qoyulmuşdur. | 13.05.24 |
| Süngərvari ensefalopatiya | Şotlandiya | Cənubi Ayrşir (South Ayrshire) inzibati ərazi vahidinə | Zonalaşma prinsipi nəzərə alınmaqla, süngərvari ensefalopatiya xəstəliyi baş vermiş təsərrüfatdan 10 km radiusda olan məsafədən diri iribuynuzlu heyvanların və onlara aid qan və qan tərkibli məhsulların, sümükdən ayrılmamış ətin, mexaniki üsulla əldə olunan sümükdən ayrılmış ətin, 30 aydan yuxarı iribuynuzlu heyvanlardan alınan sümükdən ayrılmış ətin (30 aydan az olan iribuynuzlu heyvanlardan alındığına dair müvafiq baytarlıq şəhadətnaməsi ilə birlikdə zəmanəti ehtiva edən əlavə məktubla müşayiət olunan sümükdən ayrılmış ət istisna olmaqla), məhsuldar heyvanlar üçün yem kimi nəzərdə tutulmuş emal olunmuş iribuynuzlu heyvan zülalları (süd zülalları istisna olmaqla) və məhsuldar heyvanlar üçün yemlərin idxalına müvəqqəti məhdudiyyət qoyulmuşdur. | 17.05.24 |

| | | | | |
|---|---|---|---|---|
| Nyukasl | İsveç | Skane (Skane) əyaləti | Zonalaşma prinsipi nəzərə alınmaqla, Nyukasl xəstəliyi baş vermiş təsərrüfatdan 10 km radiusda olan məsafədə yerləşən müəssisələrdən diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş emalı məhsulları olan quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının (Nyukasl viruslarının məhv edilməsini təmin edən termik emala məruz qalan mallar istisna olmaqla), quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 10.9-cu Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət qoyulmuşdur. | 24.05.24 |
| YPQQ | Avstraliya | Viktoriya (Victoria) ştatı | Zonalaşma prinsipi nəzərə alınmaqla, YPQQ xəstəliyi baş vermiş təsərrüfatdan 10 km radiusda olan məsafədə yerləşən müəssisələrdən diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş emalı məhsulları olan quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının (quş qripi viruslarının məhv edilməsini təmin edən termik emala məruz qalan mallar istisna olmaqla), quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 10.4-cü Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət qoyulmuşdur. | 24.05.24 |

**YPQQ** – Yüksək Patogen Quş Qripi